# Azərbaycan strateji hədəflərə inamla irəliləyir

**2024-cü il dekabrın 28-də Prezident İlham Əliyevin imzaladığı Sərəncamla 2025-ci il Azərbaycanda Konstitusiya dəyərlərinin təbliği, milli suverenliyin əhəmiyyətinin vurğulanması məqsədilə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Sərəncamın məqsədi Konstitusiyanın tarixi və hüquqi əhəmiyyətini ön plana çəkmək və milli dövlətçiliyin əsaslarını daha da möhkəmləndirməkdir.**

Bu qərar həm də Azərbaycan Konstitusiyasının qəbulunun 30-cu və Vətən müharibəsində qazanılan tarixi Qələbənin 5-ci ildönümünü qeyd etməklə, ölkəmizin suverenliyinin və müstəqilliyinin gücləndirilməsinə yönəlmişdir. Eyni zamanda bu qərar həm də hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Suverenlik və dövlətçilik müstəqil dövlətlərin varlığını və inkişafını təmin edən əsas amillərdir. Bu anlayışlar təkcə dövlətin hüquqi və siyasi əsaslarını deyil, həm də milli kimliyini və birliyini ifadə edir.

Azərbaycan Respublikasında suverenlik və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi müasir dövlət quruculuğu və xalqın rifahı üçün zəmin yaradır. Ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi isə bu prinsiplərin həm tarixi əhəmiyyətini, həm də gələcəyə yönəlik strateji mahiyyətini daha da önə çıxarır.

Konstitusiya və suverenlik hər bir azad dövlət üçün müstəqil yaşamın əsas göstəricisidir. Konstitusiyamız müstəqilliyimizin, suverenliyimizin, ərazi bütövlüyünün qorunması üçün mühüm qanunvericilik bazası olmaqla yanaşı, həm də ölkəmizdə demokratik azadlıqların, insan hüquqlarının müdafiəsinin təşkili baxımından həyati əhəmiyyətə malikdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti həyatın bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış ümummilli lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Prezidentin 28 dekabr 2024-cü il tarixli Sərəncamında deyildiyi kimi: *"Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır".*



**Gülxarə TARVERDİYEVA,**
**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı.**

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

Bu gün Azərbaycan dövləti xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

2020-ci ilin 27 sentyabr tarixində başlayan 44 günlük Vətən müharibəsi dövlətimizin tarixi zəfəri və ərazi bütövlüyümüzün bərqərar olması ilə nəticələndi. 2023-cü ilin 19-20 sentyabr tarixlərində lokal antiterror tədbirləri ilə suverenliyimiz tam təmin edildi. Bu böyük, tarixi nailiyyətin qazanılmasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin imzası var.

Prezident İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə 20 sentyabr ölkəmizdə Dövlət Suverenliyi Günü elan edildi. 30 illik erməni işğalına son qoyaraq ərazi bütövlüyünü və suverenliyini bərpa edən Azərbaycanda ötən il fevralın 7-də müstəqillik tariximizdə ilk dəfə bütün ölkə ərazisində prezident, sentyabrın 1-də isə parlament seçkiləri keçirildi.

Sürətli və dinamik inkişaf yolu keçən, tarixi nailiyyətlər əldə edən Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra ilk dəfə bütün ölkə ərazisində keçirilən prezident seçkiləri çox mühüm tarixi məqamları ilə yadda qaldı. Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində səs verdilər. Qalib xalqın Qalib Liderinin seçkilər zamanı Xankəndidə səsverməsi Ermənistana və onun havadarlarına tarixi mesaj idi: *"Qarabağ məsələsi birdəfəlik bitib. Bu səhifə birdəfəlik qapadılıb. Bu torpaqların həqiqi sahibi Azərbaycandır və bu əbədi belə olacaq".*

Qeyd edək ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 11 fevral 2025-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncama əsasən ölkəmizdə bununla bağlı müxtəlif tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində 2024-cü ildə Qarabağ Zəfəri siyasi-diplomatik müstəvidə daha da möhkəmləndirildi, əsas hədəflərə nail olundu, Azərbaycanın hərbi qüdrəti artırıldı. Böyük Qayıdış Konsepsiyasını uğurla həyata keçirən ölkəmiz işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri daha da sürətləndirildi. Zəngilana, Füzuliyə, Cəbrayıla, Laçına, Şuşaya və Xocalıya keçmiş məcburi köçkünlərin mərhələli qayıdışının təmin olunması uğurla davam etdirildi. Kəlbəcər, Ağdam və digər rayonlarda insanların doğma yurdlarına qayıdışı ilə bağlı intensiv işlər davam etdirilir.

Azərbaycanla Ermənistan arasında sülh prosesi özünün mürəkkəb mahiyyətinə, çətinliklərinə baxmayaraq, bu il də davam etdirilir. Bölgədə dayanıqlı sülhün, əməkdaşlığın, təhlükəsizliyin bərqərar olmasını istəyən Azərbaycan tərəfindən sülh danışıqlarını irəli aparmaq istiqamətində ciddi addımlar atılır.

Dövlət başçısının müstəqil və qətiyyətli siyasəti Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxtərəfli formatda münasibətlərinin inkişafını təmin etməklə yanaşı, beynəlxalq təşkilatlarla əlaqələrin möhkəmlənməsini də şərtləndirir.

Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi qarşıda duran ən mühüm və prioritet vəzifələrdir. Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq proqramı həyata keçirilir, bərpa və yenidənqurma sürətlə və planlı şəkildə davam etdirilir, müasir standartlara cavab verən infrastruktur formalaşdırılır. İşğal illərində tamamilə viran qoyulmuş kənd, qəsəbə və şəhərlər tamamilə yenidən qurulur, doğma torpaqlarımıza həyat qayıdır. Həyata keçirilən bütün bərpa və yenidənqurma Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi ilə bağlı konstitusiya prinsipinin təmin edilməsinin daha bir əyani göstəricisidir.




Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti öz milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Dövlətimiz ildən-ilə güclənərək inkişafının yüksək tərəqqisi ilə xarakterizə olunan, keyfiyyətcə yeni dövrünü yaşayır. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən effektiv dövlət idarəçiliyi, həmçinin təhlükəsizlik və sabitliyin gücləndirilməsi istiqamətində görülən tədbirlər, ümumilikdə, müstəqilliyimizin daha da möhkəmləndirilməsini təmin edib. Ölkəmizin bilavasitə təşəbbüsü və iştirakı ilə uğurla həyata keçirilən bir sıra irimiqyaslı layihələr nəinki təkcə Azərbaycanın, eyni zamanda ümumilikdə, regionun təhlükəsizliyinə və iqtisadi inkişafına əvəzsiz töhfə verir. ■

Respublika .- 2025.- 15 mart (№ 57).- S.5.